**NURMƏHƏMMƏD ƏNDƏLİB**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**Bakı - 2011**

TÜRKSOY kitabxanası seriyası: 7

**Tərtib edən,**
**türkməncədən uyğunlaşdıran**
**və ön sözün müəllifi**
**filologiya elmləri doktoru:**
**Ramiz ƏSKƏR**

**Redaktoru:**
**Əli ŞAMİL**

**Naşiri:**
**Rafiq BABAYEV**

**Nurməhəmməd Əndəlib. Seçilmiş əsərləri. Bakı, MBM, 2011, 20… s.**

Kitabda bu il anadan olmasının 300 illiyi tamam olan böyük türkmən şairi, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi Nurməhəmməd Əndəlibin seçilmiş əsərləri toplanmışdır. Kitab 31 mart - 4 aprel 2009-cu ildə İstanbulda TÜRKSOY tərəfindən təşkil olunan «Türk Ləhcələri Arasında Uyğunlaşdırma Çalışmalarının Bugünkü Durumu və Qarşılaşılan Problemlər» mövzusunda Beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilir.

**İSBN: 978-9952-29-041-7**
**© MBM**
**© Ramiz Əskər**

# BÖYÜK TÜRKMƏN ŞAİRİ NURMƏHƏMMƏD ƏNDƏLIB QƏRİB

(s.3-15 önsöz olacaq)

*...Nurmühammet Andalıb, Dövletməmmet Azady, Magtymguly Pyragy, Məmmetveli Kemine, Mollanepes yaly yüzlerçe alymlarymyz, akyldarlarymyz, şahyrlarymyz, sungat ussatlarymyz öçmejek yz galdırdylar, ylym ve döredijilik dünyəsinde uly meşhurlyga eye boldular.*

*...Kalbymyyzda, anymyzda «Yşk mülkünin şasy» hökmünde baky orun alan Mollanəfəs adamzat duygularynyn hakyky vəsfçysydır, ynsan kalbyna, ynsan yüregine ruhy melhem beriji şahyrdır.*

**Gurbanguly Berdimuhamedov,**
**Türkmenistanyn Prezidenti**

*...Nurmühəmməd Əndəlib, Dövlətməmməd Azadi, Məxdimqulu Fəraqi, Məmmədvəli Kəminə, Molla Nəfəs kimi yüzlərcə alimlərimiz, müdriklərimiz, şairlərimiz, sənət ustadlarımız sönməz iz qoydular, elm və yaradıcılıq dünyasında böyük məşhurluğa sahib oldular.*

*...Qəlbimizdə, yaddaşımızda «Eşq mülkünün şahı» hökmündə baqi yer tutan Molla Nəfəs bəşər duyğularının həqiqi tərənnümçüsüdür, insan qəlbinə, insan ürəyinə ruhi məlhəm verən şairdir.*

**Qurbanqulu Berdimühəmmədov,**
**Türkmənistan Prezidenti**

Qardaş türkmən xalqı öz böyük övladının 300 illik yubileyinə ciddi şəkildə hazırlaşır.

Biz bu kitabı TÜRKSOY kitabxanası seriyası silsiləsindən yubiley ilində nəşr etməklə Türk Dünyasının UNESCO-su olan TÜRKSOY-un türk xalqlarının bir-birinə yaxınlaşması, ümumi inkişafı və qarşılıqlı zənginləşməsi uğrunda apardığı coşğun fəaliyyətə də dəstək hesab edirik. Əndəlibin seçilmiş əsərləri 31 mart–4 aprel

2009-cu ildə İstanbulda TÜRKSOY tərəfindən təşkil olunan «Türk Ləhcələri Arasında Uyğunlaşdırma Çalışmalarının Bugünkü Durumu və Qarşılaşılan Problemlər» mövzusunda Beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilir. Gələcəkdə türk xalqları ədəbiyyatlarından ayrı-ayrı şairlərin əsərlərini, habelə poeziya və hekayə antologiyalarını nəşr etmək sahəsində işi davam etdirəcəyik.

Burada bir məsələni də vurğulamaq istəyirik: bu layihə bütünlüklə könüllülük əsasında və təmənnasız olaraq həyata keçirilmişdir. Əndəlibin 300 illik yubileyi ərəfəsində biz, bir qrup Azərbaycan ziyalısı, şairin şeirlərini ayrıca kitab halında ana dilimizdə nəşr etmək qərarına gəldik və bu kitabı hazırladıq. Bu layihəyə qatılan hər kəs, o cümlədən tərtibçi, kitabı türkməncədən ana dilimizə uyğunlaşdıran və ön sözün müəllifi bəndəniz Ramiz Əskər, redaktoru hörmətli Əli Şamil bu işi türklüyə bir xidmət olsun deyə heç bir məvacib və honorar almadan təmənnasız yerinə yetirmişlər. Min Bir Mahnı nəşriyyatının sahibi əziz dostumuz Rafiq Babayev kitabı pulsuz çap etmişdir.

Türklüyə xeyirli-uğurlu olsun!

***Ramiz ƏSKƏR***
***Bakı, 21 mart 2011-ci il***

# ŞEİRLƏR

## XƏNDAN-XƏNDAN

Gəldi ol sərvi-səxi naz ilə xəndan-xəndan,
Aldı könlümü nəvaziş bilə çəndan-çəndan.

Şükrülillah ki, gözüm düşdü günəş tək üzünə,
Müntəzir olmuş idim yolunda çəndan-çəndan.

Cismimə salmaq üçün işvə bilə tab üzə tab,
Sünbülün gül üzünə eylədi piçan-piçan.

Qaldılar seyr qılarda üzü-ləli-ləbinə
Gül baxıb, qönçə açıb ağzını heyran-heyran.

Əndəliba, qıla ver vəsl gününün şükrün,
Qalmazsan sən yenə hicarnında nalan-nalan.

## NƏ BƏLA XUB

Ey rəşki-pəri, mehri-camalın nə bəla xub,
Vey nilufəri tək qoşa xalın nə bəla xub.

Fikrində olub, gözlərimə cilvə nümayən
Hər saətü hər ləhzə xəyalın nə bəla xub.

Ləlin qəmindən dışladı Xızır abi-həyatın,
Kövsər suyu tək safi-zülalın nə bəla xub.

Ey huri, üzünün biri ay, birisi gün tək,
Bu ayü günəş üzrə xəyalın nə bəla xub.

Başdan ayağındır açılan gülşəni-xubu,
Sər ta beqədəm tazə nihalın nə bəla xub.

Öldürsə gözün, iki ləbin leyk verir can,
Canbəxşliyin xubi-qitalın nə bəla xub.

Baxsa üzünə, Əndəlibə heç əcəb olmaz,
Firqitzədə olana vüsalın nə bəla xub.

## CƏBRİ-CƏFAYƏ

(Məşrəbin qəzəlinə təzmin)

“Könlümü verdim bir bivəfayə,
Yandı ürəyim cəbri-cəfayə.

Ey nazəninim, mənə rəhm qıl,
Qaldım sən deyib cansız bəlayə.

Bimari-eşqin oldum nətər mən,
Nə çarə edək cəbri-cəfayə”.

Peykanın oxu dəydi ürəyə,
Varmı dəvalər işbu yarayə.

Dünyada çəkdim mən acı-həsrət,
Səbr qıla ver işbu cəfayə.

Zalım rəqiblər biganə qıldı,
Eylə tərəhhüm mən binəvayə.

…………………………..
Qılsan cəfalar ağlar xudayə.

Əndəlib sən der, keçər canından,
Qılgil inayət müflis gədayə.

## XURAMAN QAMƏTİ NAZİK

Xuraman qaməti nazik, nihali-sərvi-azadi,
Güləndami-məlaik, surəti-rəşki-pərizadi.

Vüsali-bəzmində üşşaqlarını kamiyab eylər,
Və likən eyləməz hərgiz məni-azadəni yadi.

Söndürdüm arizi-hicranında ayü günəş şəmin,
Çəkib bir ah munluq eylədim yer-göyü bərbadi.

Çəkib müjgənindən xəncər, sürüb meydan ara aşkar,
Tənim riş etdi ol kafir, əcəb birəhmi-cəlladi.

Hilalı əbrü müsəffa çü nazik təbi-şirinquy,
Pəri tələt, səmən nükhət, ləbi qənd, özü qənnadi.

Nə tanq köyündə xara mənə olsa tikan bəstər,
Qılır mən həsrət oduna yanıb, hər gecə fəryadi.

Üzi-qəddi-səmənsə kakilinin sədqəsi eylər,
Güli-sünbül bilə sərvi-çəməni qıldı azadi.

Ayağına düşüb, başından çevrilsəm əcəb olmaz,
Nəvazişlər qılıb, qılmış pozuq könlümü abadi.

Zəxi kakil, zəxi qamət, zəxi bir işvə cadu göz,
Zəxi xalı, zəxi qəb-qəb, zəxi hüsni-xudadi.

Camalı nəqşi Çin surətgəri saldı təxəyyirə,
Ki heyran qaldı, fani rəşk oduna yandı bizadi.

Nəsimi-ism hər beyt ibtidasından gəlir, əmma
Gərəkdir Əndəlibə ad çıxarmaqlıqda ustadi.

## OLDU ƏNDƏLİB

Daş ara eylər vətən, daşbağa oldu Əndəlib,
Torpağa bağrın basıb qurbağa oldu Əndəlib.

Olmasa qurbağa, daşbağa ol nəsbi-yaman,
Nə üçün bir öydə daim yekkə oldu Əndəlib.

Biqənaətlik tutub əzasından balü pərin,
Bu üqubət birlə tikkə-tikkə oldu Əndəlib.

Dost olanlar eşitsələr soyuqdan ölməyini,
Gülüşüb söylərlər, ölsə xəkdə oldu Əndəlib.

Olsa qış, urmuş qovağa, yaz olsa yazılar,
Gəh bayquş oldu, gəhi çəkkə oldu Əndəlib.
.

# AÇDI

Bahar əyyamı gözdən qönçələr gülşəndə xab açdı,
Səba məşşatəsi sünbülün zülfün yaydı, tab açdı.

Görüb sərgəştə əhvalını bəzmi-bustan içrə,
Təbəssümlər ilən bülbülə güllər ləli-nab açdı.

Diymən gül qönçəsi güllər dəmə-dəm bülbülün səslər,
Hərəmi-gülşən içrə səbz süfrədən kitab açdı.

Təqdimi-bülbülə zərrin piyalə birlə gülşəndə,
Diymənlər nəstəran ləbə-ləb güli-şərab açdı.

Xalılasa özünü atəşi-eşq içrə uran çün,
Bilin, həq rövzeyi-gülzarından bülbülə bab açdı.

Dəbistani-çəməndə tifl sayaq Əndəlibi-zar,
Ki bismilla oxuban eldə həmradan kitab açdı.

## YETSƏ

Nə xoş gündür, müsahiblər, kişi cananına yetsə,
Görüb dürlü məlamətlər, axır dildarına yetsə.

Çəkib rənci-məşəqqətlər, ki eşq yolunda afətlər,
Görüb yüz min əlamətlər, könül ərmanına yetsə.

Fələk ursa ona şəbxun, yıxılsa başına gərdun,
Görüb yüz dərdü qəm əfzun, yenə dərmanına yetsə.

Dilü canım xarab olsa, yolunda min əzab olsa,
Yanıb bağrım kabab olsa, nə ərman canına yetsə.

Mələk sima, qəddi ziba, gözü ahu, üzü həmra,
Olub çün Əndəlib şeyda, güli-xəndanına yetsə.

## YARIN FƏRAĞI

(Məşrəbin mürəbbəsinə təzmin)

"İstəyib gəzdim Şamü İraqı,
Tapmadım əsla yardan sorağı,
Yandırdı canım, çox iştiyaqı,
Müşkül olandır yarın fərağı".

Daim səhərlər ahü fəğanım,
Yaxdı fələyi, çıxmadı canım,
Hanı mənim ol sahibgiranım,
Yandırdı, dostlar, yarın fərağı.

Canü dilimə odları yaxdı,
Gözlərdə yaşım qan olub axdı,
Güssə, ahını boynuma taxdı,
Yandırdı, dostlar, yarın fərağı.

Yarı soraqlayıb hardan taparam,
Odlu ürəyimə suyu səpərəm,
Qəm qılıncı ilə başım çaparam,
Yandırdı, dostlar, yarın fərağı.

Gördüm nagahan gül tək üzünü,
Qara qaşlarını, nərgiz gözünü,
Qatqa alaram şirin sözünü,
Yandırdı, dostlar, yarın fərağı.

Canü ciyərlər alışdı, ey yar,
Çünkü əzəldən oldum giriftar,
Könlüm həmişə eşqində bimar,
Yandırdı, dostlar, yarın fərağı.

Dərdə təbibim qarşıma gəlməz,
Gəhi gəlsə də, halımı sormaz,
Zəhmi-dilimi bir kişi görməz,
Yandırdı, dostlar, yarın fərağı.

Nalə qılaram şamü səhərlər,
Hicrində oldum indi qələndər,
Xumarı oldum mən saqi-kövsər,
Yandırdı, dostlar, yarın fərağı.

Getdi cananım, küll ixtiyarım,
Olmadı hərgiz könlüm mülayim,
Oldu qaranlıq iki cahanım,
Yandırdı, dostlar, yarın fərağı.

Getdim özümdən yolunda mən xar,
Canü dilimdən artıqdır ol yar,
Könlüm alışır, Əndəlin əfkar,
Yandırdı, dostlar, yarın fərağı.

## DOLAYI

Ey şəhdi-nazik təbiət, gül üzündən dolayı,
Ey qəmər üzlü, şəkər-şirin sözündən dolayı,
Xoş qələm ol iki qaşi-qunduzundan dolayı,
İşvə-naz ilən baxan nərgiz gözündən dolayı,
Həm üzündən, həm gözündən, həm özündən dolayı.

Bu nə dövlətdir ki, didarın tamaşa eyləsəm,
Sanki ol həzrəti-Yusifi sövda eyləsəm,
Ay üzün gördüm, özümü məsti-şeyda eyləsəm,
Eşqini, ey növbaharım, könlümə ca eyləsəm,
Həm başından, həm daşından, həm qaşından dolayı.

Təxti-dünyanı gəzib, sən tək nigarı görmədim,
Sən kimi sahib-lətafət gülüzarı görmədim,
Sən kimi nazikbədən çeşmi-xumarı görmədim,
Dilrübalar içrə sən tək şəhriyarı görmədim,
Həm belindən, həm əlindən, həm dilindən dolayı.

Uyğuda gördüyüm ol şahi-cahanım sənmisən?
Ağlı-huşum alan ol qaşı kamanım sənmisən?
Könlüm içrə cay olan mehribanım sənmisən?
Qaməti-tubadan artıq şirin zəbanım sənmisən?
Həm dilindən, həm ləbindən, həm balından dolayı?

Bu müxəmməsi sənin vəsfin ilən qıldım bəyan,
Əqli-huş yetməz sənin vəslinə, ey nazik xuram,
Vəsfini desəm tükənməz ta bu dəm yövmül-qiyam,
Mən qərib canım fəda qılsam, sənə olub qulam,
Həm boyundan, həm oyundan, həm huyundan dolayı.

Şükr Allaha, sən kimi bir məhliqaya uğradım,
Çün kamalı afitab, qaşı qaraya uğradım,
Əndəlibi-binəvadır, mən nəvaya uğradım,
Bu nə dövlətdir ki, sən tək padişaha uğradım,
Həm boyundan, həm oyundan, həm huyundan dolayı.

## DİLBƏR

Qurban olum gül üzrə badam qabağa, dilbər,
Görcək məni yapışdı qəmzən bıçağa, dilbər,
Ləlin meyin içmədən düşdüm ayağa, dilbər,
Olar nə növ halım yetcək dəvaya, dilbər,
Qətlim gənəşin eylər zülfün qulağa, dilbər.

Ömür durur qapında, ey mah, şəm tək yanaram,
Çıxsan sən xuram edib, başına dolanaram,
Xali-təbağın birlə köyünə mən dalaram,
Gənci-vüsalın istər, çün mar tək tovlanaram,
Rəhm eylə gözlərimdə qanlı bulağa, dilbər.

Şərh eyləsəm tükənməz həm dəm sifəti-hüsnün,
Bağ içrə qızardı alcaq baərati-hüsnün,
Əğyara həmdəm olmuş çox iltifati-hüsnün,
Ey şah, mən gədaya verməz zəkati hüsnün,
Bir görsədib özünü çəkdin qırağa, dilbər.

Baxışının arzusu qıldı qəddim xəmində,
Halım kimi pərişan oldu tənim cəbrində,
Qanlar udar həmişə könlüm ləbin qəmində,
Xalına ram oldum görcək məni-rəmidə,
Canlar quşunu zülfün saldı duzağa, dilbər.

Şövqündə, ey pərivəş, divanədir bu canım,
Hər nə günah qılsan sən, cürmanədir bu canım,
Mən xəstə binəvadan biganədir bu canım,
Vəsl axşamını tapan əfsanədir bu canım,
Şəmi-cəmalinə bax, baxma çırağa, dilbər.

Gül tək üzün qəmində yox məndə səbrü taqət,
Ruzi-şəb fərağından tapmaz zamanı rahət,
Sən olmayan zamanı qılmaz könül fərağət,
Cənnət sənin vüsalın, hicrin dürur qiyamət,
Sədqə olsun gözündən, gəlgil qucağa, dilbər.

Sənsiz mənə gülüstan guya ki tari-suzan,
Şövqündə əndəlibi sarar nəvayi-əfğan,
Bil hüsnünün qədrini, səndən ötər bu dövran,
Zülmü sitəm bədəl qıl, qoyma arada hicran,
Sədqə olsun qaşından, gəlgil qucağa, dilbər.

Rədd eyləmə qapından, ey nazənin, qulun mən,
Tün-gün şikəstə xatir, könlü həzin qulun mən,
Qəm dərdindən qaralan hinduyi-çın qulun mən,
Bazari-eşqə girən bir kəmtərin, qulun mən,
Mən zarı başından qılgil sadağa, dilbər.

Gül çöhrən et nümayən biçarə Əndəlibə,
Qılsan nə olur gəhi nəzarə Əndəlibə,
Rəhm eyləməzmisən heç avarə Əndəlibə,
Bir cəmi dolu tutgil meyxarə Əndəlibə,
Hazü itabı birlə varanda bağa, dilbər.

## BU ARX

Həvəsli deyxanlara bir nazənin canan bu arx,
Olsa su vəqti-əşkində dolanır çəndan bu arx,
İki yüz axça bahası olsa həm ərzan bu arx,
Güldürüb suyu quyarda örəsi lərzan bu arx,
Əşki silən gözlərindən axızır giryan bu arx.

Hər səhərlər nalə eylər, hıçqırır şeyda olub,
Dolanır yüz nəğmə birlə bülbüli-guya olub,
Gölçə-gölçə yerlərə rəhmət suyu dərya olub,
Rəhmətindən göyərər cümlə nəbatat can bulub,
Həq-təala zikrin deyər, gecələr əfğan bu arx.

Sən qulaq versən, yaxar, hər dəmbədəm avazı xoş,
Balaman, dütar, setardan yey olur, həm sazı xoş,
Su firavan olsa həm olar anda yazı xoş,
Dəmbədəm töksə digir suyu fikirdən nazı xoş,
Biz kimi üftadələrin dərdinə dərman bu arx.

Olsa guya bir səfər kim dolanmaqda coş edər,
Yiyəsi yüz min sənalar birlə könlün xoş edər,
Mehriban olsa xuda kimə bu arxı tuş edər,
Kim bu arxın ləzzətin bilməz onu mədxuş edər,
Dər həqiqət bilən elə əsli deyxan bu arx.

İşbu arxa mində bir ağac, bilin, dərkar olur,
Hər biri bir ləfz ilə zikri-xudaya zar olur,
Biri sübhan der, biri əlhəmdülillah yar olur,
Aylanurda qısqanı çərxi-fələk tək var olur,
Digiri „hu-hu” deyib, bağırları biryan bu arx.

Örəsi baxıb səmaya ərşi-əla görgüsü,
Həq-təala birliyinə həm qüvvəlik vergisi,
Beləsi həq süngünə daim tamaşa qılğusu,
Suyundan pəstü bülənd şurə zəminlər dolğusu,
Abi-rəhmətdən göyərir bağ ilə bostan bu arx.

Lailahə-illəllah deyib, arpa-buğda baş olur,
Laşərikə vəhdətu deb juğarı həm çaş olur,
Yerkökü, küncüt, zığır, şalı əcaib aş olur,
Juğarını çox əkin, onun xüruşu məş olur,
Ehtiyat edin, ərənlər, olmasın viran bu arx.

Həm üzüm peyda olub, əncir həm zərdalılar,
Alma, kişmiş, qarpuzu tərbuzu, qaralılar,
Püstələr, ənarlar, nabatıyü şaftalılar,
Süsənü sünbül, qızılgül açılıb, gül lalələr,
İşbu güllərin görüb, çəndan olur, məstan bu arx.

Kim ki bilməz bu jıxırın ləzzətini heyvan olur,
„Su” deyib hey gözləsə, bil, axmağü nadan olur,
Daşmasa su yer üçün işimiz min əfğan olur,
Şükrüllah Əndəlib qıldı, jıxır cövlan olur,
Biz kimi üftadələrin dərdinə dərman bu arx.

## NÖVBƏ SİZƏ YETDİ

İbrət alın, ey xalq, cahandan həmmə getdi,
Kim aləmə gəldi, həmmə ərman ilə getdi,
Düz bəndələri axirət əsbabını etdi,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ol həzrəti Adəmə yetirdi nə bəlalər,
Həvva başına saldı nə möhnət, nə cəfalar,
Ol Nuha verdi nə sitəm əhli-xətalar,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Cərcis ilə Şeys idi nəbilər qüdəması,
İdris idi aləmdə bəşərin üləması,
Loğman həkim idi ulusun hükəması,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Yəhyanı, Zəkəriyyəni şəhid eylədi küffar,
Əyyub təninə etdi xuda bir dərin azar,
Durmaz, bu cahandan hamısı ötdü bəyekbar,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Yəqub sitəmlər görüb ötdü bu cahandan,
Yusif satılıb gördü cəfalar bu məkandan,
İsa fələyə getdi qaçıb əhli-zamandan,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Salih hanı, ol nakanı daşdan betər edən,
Musa hanı, ol quru əsanı şəcər edən,
Ol Lut hanı, ümməti xuni-ciyər edən,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Davudun əlində dəmir mum tək əridi,
Məhkumi-Süleyman zi səma ta səmək idi,
Ol şahi-rəsul sairi-doqquz fələk idi,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Qaldımı Xəlil, oğlunu ol eylədi qurban,
Qaldımı Əli, tanrı demişdi ona arslan,
Əshabi-peyğəmbər hanı, ol Buzəri-Səlman,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Sibteyn nəbi hanı, imami-ümam idi,
Səccadə hanı, aləm ara möhtərəm idi,
Övladi-peyğəmbər həmə sahibi-kərəm idi,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Aqilsən, imami-əzəmi-Kufəyə nəzər qıl,
Aldanma cahan məkri-fəribinə həzər qıl,
Azıq qəmini eyləgil, əsbabi-səfər qıl,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Tərk etdi cahan mülkünü ol xoca Əhrar,
Sultani-təriqət – ol Qasimi-Ənvar,
Şibli hanı, tanrıya idi məhrəmi-əsrar,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ol mürşidi-xeyir hanı, ki adı Həsan idi,
Ol dürri-giranmaya, ki Veysəl-Qəran idi,
Əhməd Yəsəvi harda, ki qütbül-ərən idi,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ol şeyx Kəbir etdi şəhadət meyini nuş,
Mənsur idi salan, hanı, ol bəhr içinə coş,
Nəqşibənd vəli hanı – idi şahi-gülabpuş,

Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Şahbaz hanı, ol ədl ilə dad etdi həmişə,
Hatəm idi qılan özünə xeyiri peşə,
Fərhadı yox qıldı vurub başına tişə,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Iskəndər idi zor ilə aləm yürüb alan,
Rüstəm hanı, ol aləm ara vəlvələ salan,
Məhruri-cahan olmayınız, ey yar ilə yaran,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Qaldımı biri, aləm ara xani-xəvakin,
Həsrət ilə yetdi həmə sultani-səlatin,
Dəstgir deyil mal ilə övlad, xəvatin,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Nə qıldı vəfa dəhr peyğəmbərə, vəliyə,
Rəhm etmədi ol aqilü baliğə, səbiyə,
Sərf eylətiniz övqatı üqba tələbiyə,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Cəhd eylə, qəza eyləməgil rozə-namazın,
Dur ertə səhər, tanrıya ərz eylə niyazın,
Ötürmə əbəs gecəyü gündüz, qışu yazın,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ata-ananı, qövm-qarındaşını qıl yad,
Həm yar, bəradər hanı, ol pir ilə ustad,
Qafillik ilə vermə əziz ömrünü bərbad,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ümmət, qılıban tövbə, yaxanı tuta vergil,
Bu fani cahan var-yoxun unuda vergil,
Yaxlaşma bu dünyaya, iraqdan ötə vergil,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Məstanə açıq saxsıdan camını sunmaz,
Kim qalasıdır, bu qara torpaq ara girməz,
Fəryad ki, qaldım yenə ərman ilə, görməz,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ya rəb, qıl onu rövzeyi-rizvan ilə ülfət,
Fəzlin ilə əhvalına bax, eylə inayət,
Durğuzginən həm rövzəsində ruzi-qiyamət,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ey Əndəliba, ötdü cahandan neçə şahbaz,
Bu ömrü bəqasız qılacaq bir günü pərvaz,
Musa Kəlam idi xudaya qılıban raz,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

Ey Əndəlib, ötdü bu dünyadan həmmə ər,
Məkr ilə aldadıb həmməni uddu bu qara yer,
Qalmaz birisi – mürşidi-kamil, yenə həm pir,
Agah olun, çərx əvvəlkiləri netdi,
Vaqif olun, əhbab, ki növbə sizə yetdi.

## NƏ ƏCAİB, NƏ QİYAMƏT

Ey pərtövi-hüsnündə olan nuri-səadət,
Bey nəxli-qədin zibi-gülüstani-zərafət,
Yetirdi damağıma qədin nükhəti-rahət,
Bir qəmzə ilə baxdın, canım tapdı xəlavət,
Hay-hay, nə düşübdür bu xuraman qəddi-qamət,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Övraqi-camalında yazılmış xətti-reyhan,
Hər tün başının səmərəsi bir ayəti-Quran,
Şanından nüzul oldu onun „surəti-rəhman”,
Rəngin üzünə müzmər olur mənayi-əlvan,
Başdan ayağındır açılan tazə gülüstan,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ol xali-siyahın ki, düşübdür zəkan içrə,
Bir müşki-Xətadan yeni gəlmiş Xotən içrə,
Hinduyi-şuxbadamın ikən əncümən içrə,
Ya nilufərindir, açılıbdır çəmən içrə,
Dürdanə dişindir, tapılıbdır Ədən içrə,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Mərgulələrin türreyi-tərrarın açıbdır,
Sünbül üzə sünbül güli-rüxsarın açıbdır,
Gül qönçələrin ləli-şəkərbarın açıbdır,
Sərv eybini nazik qədi-rəftarın açıbdır,
Can qəsdinə göz qəmzeyi-xunxarın açıbdır,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Külbəmə qədəm qoysan, öpərəm ayağından,
Gəh qəbqəbi-safi, gəhi simin sakağından,
Öldürməyə nəvək çıxarıbdır sadağından,
Qurbanın olum göz üzə badam qabağından,
Şərbət əzilər yəxyil-izam dodağından,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ey qəmzəsi qanlar içici, gözləri cəllad,
Can almağa ustad yaradıbdır səni ustad,
İnsan demək olmaz sənə, ey hüsnü-xudadad,
Hüsnün güli-rənayü qəddin ərəri-şümşad,
Siratda məlaiksən u surətdə pərizad,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ey müğbeçə, məhbubluğun həddən ötübdür,
Avazeyi-hüsnün külli aləmi tutubdur,
Üzün görəli cənnəti adəm unudubdur,
Rüxsari-camalında güli-lalə bitibdir,
Məşşateyi-təqdir səni xoş yaradıbdır,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ey şux, səni görəli divanə olmuşam,
Hər gecə üzün şəminə pərvanə olmuşam,
Hicrində özüm qəm ilə qəmxanə olmuşam,
Ləli-ləbin soralı məstanə olmuşam,
Qəvvas kimi talibi-dürdanə olmuşam,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Bülbülün işi, Əndəliba, ahü fəğandır,
Dildar gözündən neçə vəqt oldu nihandır,
Bir görməklə od tək üzünü yanmaq həmandır,
Bu fitneyi-dövran ki, həmə səndə əyandır,
Ey müğbeçə, cadu gözün aşubi-zamandır,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

# TƏXMİSLƏR

# İÇİNDƏKİLƏR

*Böyük türkmən şairi Nurməhəmməd Əndəlib* (Ramiz Əskər)..........3

Xəndan-xəndan ........................................................17
Nə bəla xub.............................................................18
Cəbri-cəfaya ...........................................................20
Xuraman qaməti nazik ............................................ 22
Oldu Əndəlib...........................................................23
Açdı.........................................................................25
Yetsə .......................................................................26
Yarın fərağı .............................................................28
Dolayı......................................................................29
Dilbər ......................................................................31
A ............................................................................33
A ............................................................................34
A ............................................................................35
A ............................................................................36
A ............................................................................37
A ............................................................................38
A ............................................................................42
A ............................................................................43
A ............................................................................47
A ............................................................................50
A ............................................................................51
A ............................................................................54
A ............................................................................55
A ............................................................................56
A ............................................................................61
A ............................................................................62
A ............................................................................64
A ............................................................................65
A ............................................................................66
A ............................................................................67
A ............................................................................69

A ........................................................................................ 70
A ........................................................................................ 71
A ........................................................................................ 33
A ........................................................................................ 34
A ........................................................................................ 35
A ........................................................................................ 36
A ........................................................................................ 37
A ........................................................................................ 38
A ........................................................................................ 42
A ........................................................................................ 43
A ........................................................................................ 47
A ........................................................................................ 50
A ........................................................................................ 51
A ........................................................................................ 54
A ........................................................................................ 55
A ........................................................................................ 56
A ........................................................................................ 61
A ........................................................................................ 62
A ........................................................................................ 64
A ........................................................................................ 65
A ........................................................................................ 66
A ........................................................................................ 67
A ........................................................................................ 69
A ........................................................................................ 70
A ........................................................................................ 71
A ........................................................................................ 73
A ........................................................................................ 74
A ........................................................................................ 75
A ........................................................................................ 76
A ........................................................................................ 77
A ........................................................................................ 78
A ........................................................................................ 82
A ........................................................................................ 83
A ........................................................................................ 87
A ........................................................................................ 90
A ........................................................................................ 91
A ........................................................................................ 94
A ........................................................................................ 95
A ........................................................................................ 96

A ....................................................................................... 97
A ....................................................................................... 99

## Ramiz ƏSKƏR



10 yanvar 1954-cü ildə Amasiya rayonunun Qaraçanta kəndində müəllim ailəsində anadan olmuşdur. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir (1978).

Azərbaycan radiosunda redaktor (1978-83), Azərbaycan, türk, ərəb, fars, ingilis, fransız və alman dillərində çıxan "Azərbaycan bugün" jurnalının baş redaktoru (1983–84), kiril, latın və ərəb əlifbaları ilə nəşr olunan "Odlar yurdu" qəzetinin baş redaktoru (1984-91), "Hürriyet" qəzetinin (İstanbul) Azərbaycan üzrə xüsusi müxbiri (1991-93), Xarici Turizm Şurasının idarə rəisi (1993-94), "XXI əsr" qəzetinin baş redaktoru (1994–96), "Yeni Forum" jurnalının (Ankara) Bakı təmsilçisi (1993-97) olmuşdur. 1997-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin baş katibidir. Filologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin müəllimidir (2002-ci ildən).

"Qızıl qələm", "Həsən bəy Zərdabi", "Humay", Küveytin "İslama xidmət", Türkiyənin "Yeni Orhun" və "Türk dünyasına xidmət" mükafatları laureatıdır. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Mətbuat İnstitutunun (İPİ, Vyana) üzvü, Beynəlxalq Jurnalistlər Birlikləri Konfederasiyası (Moskva) və Avrasiya Jurnalistlər Konfederasiyası (Ankara) idarə heyətlərinin üzvüdür. Türkologiya, ədəbiyyat, tarix və jurnalistika sahəsində kitablar yazmış, türk, rus, özbək, uyğur, türkmən dillərindən tərcümələr etmişdir.

**Əsas əsərləri:**

1. İqlimdən-iqlimə, təqvimdən-təqvimə. Bakı, İşıq, 1987, 104 s.
2. Qutadğu bilig. Bakı, Elm, 2003, 320 s.
3. 80 yaşın zirvəsindən baxanda. Bakı, Adiloğlu, 2005, 356 s.
4. Mahmud Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri. Bakı, MBM, 2008, 432 s.
5. Mahmud Kaşğarinin 1000 illik yubileyinə 1000 biblioqrafik göstərici. Bakı, MBM, 2008, 96 s.
6. Mahmud Kaşğarinin "Divanü lüğati-it-türk əsəri üzrə biblioqrafik və qrammatik göstərici. Bakı, MBM, 2008, 192 s.
7. Mahmud Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri. Bakı, MBM, 2009, 532 s.

**Əsas tərcümələri:**

1. Azerbaycan Masalları. Bakı, Yazıçı, 1982, 196 s.

2. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1991, 248 s.
3. Faruq Sümər. Oğuzlar. Bakı, Yazıçı, 1992, 432 s.
4. Yusif Balasağunlu. Qutadğu bilig. Bakı, Azərnəşr, 1994, 492 s.
5. Murad Tağı. Həyatım. Bakı, Oka Ofset, 1998, 92 s.
6. Erik Fichtelius. Jurnalistikanın on qızıl qaydası. Bakı, AJB, 2002, 192 s.
8. Bahəddin Ögəl. Türk mifologiyasi. Bakı, Səda, 2004, I cild, 626 s.
9. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, I cild, 512 s.
10. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, II cild, 400 s.
11. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, III cild, 400 s.
12. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, IV cild, 752 s.
13. N.Ozerov. İlham Əliyev: Mən Azərbaycanıma inanıram. Bakı, Azərnəşr, 2007, 376 s.
14. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, I том, 512 с.
15. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, II том, 400 с.
16. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, III том, 492 с.
17. Oraz Yağmur. Qarabağlı ananın ağısı. Bakı, MBM, 2009, 84 s.
18. XX əsr özbək şeiri antologiyası. Bakı, MBM, 2009, 96 s.
19. Molla Nəfəs. Bu məkana gəlmişəm. Bakı, MBM, 2010, 160 s.
20. Todur Zanet. Ana dilim. Bakı, MBM, 2010, 104 s.

Evlidir, iki qızı, bir oğlu var.

Türkcə, rusca, almanca və ermənicə bilir.

E-mail: ramizasker@yahoo.com

TürkSOY kitabxanası seriyası – 7

Tərtib edən:
türkməncədən uyğunlaşdıran
və ön sözün müəllifi
filologiya elmləri doktoru:
Ramiz ƏSKƏR

Redaktoru:
Əli ŞAMİL

Naşiri:
Rafiq BABAYEV

Nurməhəmməd Əndəlib. Seçilmiş əsərləri. Bakı, MBM, 2011, 20... s.

Bu kitab bu il anadan olmasının 300 illiyi tamam olan böyük türkmən şairi, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi Nurməhəmməd Əndəlibin yubileyinə bir hədiyyə, qardaş türkmən xalqına, qədim və köklü türk mədəniyyətinin tərkib hissəsi olan türkmən mədəniyyətinə ərməğan olaraq hazırlanmışdır.

Korrektor: Leyla
Texniki redaktor: Ülvi Arif
Kompüterdə yığdı: Solmaz Əskərova
Dizayner: Ceyhun Əliyev

---

Çapa imzalandı: 10.01.2010
Formatı: 70x100
Həcmi: ... çap vərəqi
Tirajı: 500 ədəd
MBM MMC mətbəəsində
çap olundu.